Grant Thornton Azerbaijan
Damirchi Tower
22nd floor
37 Khojali Avenue
Baku, Azerbaijan

T +994 12 4047537
+994 12 4047538
F. +994 12 4047543
E info@az.gt.com
www.grantthornton.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**Monetri Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarlarına**

## Maliyyə hesabatlarının auditi barədə hesabat

### Rəy

Biz **"Monetri Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin** 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan və maliyyə hesabatlarına qeydlərdən, o cümlədən əsas uçot siyasəti məlumatlarından ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizə görə, əlavə edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından, Şirkətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq düzgün əks etdirir.

### Rəy üçün əsas

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Həmin standartlara görə bizim məsuliyyətlərimiz hesabatımızın Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti hissəsində təqdim edilir. Biz Mühasiblər üçün Beynəlxalq Etik Standartlar Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinə (MBESŞ Məcəlləsi) (Beynəlxalq Müstəqillik Standartları daxil olmaqla) və Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditinə müvafiq olan etik tələblərə əsasən Şirkətdən müstəqilik və bu tələblər və MBESŞ Məcəlləsi üzrə digər etika məsuliyyətlərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### Rəhbərliyin və Maliyyə Hesabatları üçün İdarəetmə ilə əlaqəli şəxslərin vəzifələri

Rəhbərlik maliyyə hesabatlarının BMHS-a uyğun olaraq hazırlanmasına və ədalətli təqdim edilməsinə cavabdehdir və rəhbərliyin müəyyən etdiyi kimi daxili nəzarət, saxtakarlıq və ya səhv səbəbindən əhəmiyyətli təhriflərdən azad olan maliyyə hesabatlarının hazırlanmasına imkan yaradır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Şirkəti ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyəti olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Şirkətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətlə bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri daşıyan şəxslər Şirkətin maliyyə hesabatı prosesinə nəzarət etmək üçün məsuliyyət daşıyırlar.